***Şövkət Zərin Horovlu***

***Elim yandı Xocalıda***

Qara gəldi bizə bu qış
Heç belə talan olmamış.
Qönçəsində açılmamış,
Gülüm yandı Xocalıda.
Aman vermədi o qansız,
Erməni - dinsiz, imansız.
Ata-analı qayğısız,
İlim yandı Xocalıda.
Od içində yandı hər yan,
Göz yaşmda dondu hər yan.
Göydə quşu da ağladan
Ünüm yandı Xocalıda.
Qarabağm dizi çökdü,
Dağı çökdü, düzü çökdü.
Sanki dünya özü çökdü,
Elim yandı Xocalıda.

***Horovlu Ş.Z. Elim yandı Xocalıda : şeir // Horovlu Ş.Z. Babam iki alıb. – Bakı : 2006. – S.51***